MahadSunnah

هيثم سرحان

أشعرهُ أنك تفتقده

Ona onunla maraqlandığınızı hiss etdirin

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

BU, HƏR BİR ATAYA, ANAYA, ƏRƏ, ARVADA, DOSTA VƏ RƏFİQƏYƏ ÇATMALI OLAN MESAJDIR.

“Bir gün Peyğəmbər (sallallahu aleyhi və səlləm) məsciddən çör-çöpü yığıb təmizləyən zənci qadını maraqlandı.”[1]

Ola bilsin ki, bir gün kimsə “Mənimlə maraqlanan yoxdur”, “heç kəs mənə diqqət yetirmir”, “onların arasında mənim dəyərim yoxdur” deyərək şikayətləndi və daha yaşamaq istəmədiyini söylədi.

Hər ailədə və hər yoldaşlıqda sizdən asılı olmayaraq

- ya salehliyi və itaətkarlığı ilə,
- ya ağlı və zəkası ilə,
- ya mehribanlığı və zarafatcıllığı ilə,
- ya da mərdliyi və məsuliyyəti ilə varlığını hiss etdirən xüsusi bir insan tapılır.

Digər tərəfdən diqqətimizi çəkməyənlər də az deyil. Çünki bizim nəzərimizdə onlar adi insanlardır. Onlara diqqət yetirməyə halların soruşmağa yer qalmır. Zaman keçdikcə özlərinin heç bir dəyəri olmadığını hiss edirlər. Heç kim onlarla maraqlanmır və heç kim onlardan halını soruşmur. İnsanların onlara nifrət etdiklərini hiss edirlər.

[1] Buxari/458 Muslim/ 956

Çox vaxt belə insanın ruhu xəstələnir və o, özünü tərk edilmiş hiss edir və bəlkə də həyata nifrət edir.

İndi sual ondan ibarətdir ki, biz bütün övladlarımızdan kimin üstün olub, kimin üstün olmadığını soruşsaq, bizə nə cavab gələcək?

Əlaqə yaradan gülərüz şəxs yoxsa təkliyə çəkilən?

Quran hafizi yoxsa yalnız vacibləri yerinə yetirən, hətta günah da edən?

Həyat yoldaşınızın qayğısına qalmaq və onun yoxluğunda onun üçün darıxdığınızı hiss etdirməyin bir ər kimi sizə nə çətinlik yaradar ki?

Ərinizə onun üçün darıxdığınızı və onun yoxluğunda onunla maraqlandığını və onsuz o həyatın qaranlıq bir zülmət olduğunu hiss etdirməyiniz bir arvad olaraq sizə nə çətinlik yarada bilər ki?!

O adi və seçilməyən dostumuza zəng etməyimiz bizə nə çətinlik yarada bilər ki?!

Bir az qayğı göstərib ətrafımızdakıların ruhunu diriltmək bizə nə çətinlik yaradar axı?!!!